DÖVLƏT
VERGİ
XİDMƏTİ

# 2020-ci il yanvarın 1-dən etibarən aşağıdakı hallarda həm əhaliyə, həm də vergi ödəyicilərinə malların satışı və xidmətlərin göstərilməsi zamanı SADƏLƏŞDİRİLMİŞ VERGİ metodunu tətbiq etmək hüququnuz saxlanılır!

- **Malların pərakəndə satışı ilə yanaşı**, eyni zamanda topdansatışını da həyata keçirirsinizsə, rüb ərzində elektron qaimə-faktura ilə rəsmiləşdirilməli olan əməliyyatlarınızın həcmi ümumi ticarət əməliyyatlarınızın (satışdankənar gəlirlər istisna olmaqla) həcminin **30 faizindən çox deyilsə**;

195
Az1073, Azərbaycan, Bakı, Landau küçəsi, 16
Tel: +994 12 403 89 70; Faks: +994 12 403 89 71
E-poçt: office@taxes.gov.az
www.taxes.gov.az

- **əhaliyə xidmətlə yanaşı**, vergi ödəyicisi kimi vergi orqanında uçotda olan şəxslərə xidmətlərin göstərilməsini də həyata keçirirsinizə, rüb ərzində elektron qaimə-faktura ilə rəsmiləşdirilməli olan əməliyyatlarınızın həcmi xidmətlərin göstərilməsi üzrə ümumi əməliyyatlarınızın (satışdankənar gəlirlər istisna olmaqla) həcminin **30 faizindən çox deyilsə**, sadələşdirilmiş vergi metodundan istifadə edə bilərsiniz.

**Məsələn:** Rüb ərzində xidmətlərin göstərilməsi üzrə ümumi əməliyyatların (satışdankənar gəlirlər istisna olmaqla) həcmi – 10.000 manat, ondan elektron qaimə-faktura təqdim edilməklə göstərilmiş ümumi əməliyyatların həcmi – 2.500 manat təşkil edir.

Bu halda, rüb ərzində elektron qaimə-faktura təqdim etməklə xidmətlərin göstərilməsi üzrə əməliyyatların həcmi xidmətlərin göstərilməsi üzrə ümumi əməliyyatların həcminin 30 faizdən (2.500/10.000 x 100=25%) çox olmadığı üçün sadələşdirilmiş vergitutma metodu tətbiq edilə bilər.

## Onu da bilməlisiniz ki....

- **PƏRAKƏNDƏ SATIŞ** – malların alıcıya satışının (təqdim edilməsinin) son istehlak məqsədilə və yalnız Vergi Məcəlləsində müəyyən edilmiş qaydada qəbz və ya nəzarət-kassa aparatının çeki (sahibkarlıq fəaliyyətini həyata keçirən hüquqi və fiziki şəxslərin tələbi ilə elektron qaimə-faktura) təqdim olunmaqla həyata keçirilməsi üzrə ticarət fəaliyyətidir.
- **TOPDANSATIŞ** – malların alıcıya satışının (təqdim edilməsinin) onun sahibkarlıq fəaliyyəti məqsədləri üçün və yalnız Vergi Məcəlləsində müəyyən edilmiş qaydada elektron qaimə-faktura təqdim olunmaqla həyata keçirilməsi üzrə ticarət fəaliyyətidir.
- **ELEKTRON QAİMƏ-FAKTURA** - elektron formada hazırlanan və malları təqdim edən, işləri görən və xidmətləri göstərən şəxs tərəfindən fərdi sahibkarlara və hüquqi şəxslərə təqdim edilən ilkin uçot sənədidir. Vergi ödəyicisi kimi qeydiyyatdan keçməyən alıcıya pərakəndə qaydada mal (iş, xidmət) təqdim edildikdə, ona qəbz və ya çek verilir.

Vergi qanunvericiliyinin tələbləri ilə bağlı əlavə məlumatı www.taxes.gov.az internet saytından və müvafiq bukletlərdən əldə edə bilərsiniz.